# Aygün Yavər qızının şeir dünyası...

**Aygün xanım evdar qadındır. İki uşaq anasıdır. Asudə vaxtlarında bədii yaradıcılıqla məşğul olur, gözəl rəsmlər çəkir. "Təbriz sənətkarları" adlı kitabın müəllifidir. (Bakı, "Elm və təhsil" nəşriyyatı, 2014) Kitaba Aygün xanımın iki poeması, şeir və qəzəlləri daxil edilmişdir. Həmin kitab hazırda qırğız dilinə tərcümə olunur. Bu yaxınlarda "Manera az "saytının keçirdiyi müsabiqədə Aygün xanımın Səfərli imzası ilə təqdim etdiyi şeirləri dörd yüz müəllif arasında ilk onluqda yer qazanıb. Aygünün şeirləri məzmun və forma cəhətdən bitgin və olduqca rəngarəngdir. Aygün Yavər qızının şeirlərindən bir neçəsini oxuculara təqdim edirik.**

**Nurəddin Ədiloğlu**



### *Əgər qadın olmasaydım...*

Əgər qadın olmasaydım,
Nələr qurub yaratmazdım.
Daş hörüklü çin səddi tək,
Arzulara sədd qoymazdım.
Ömür gedir yüz səhnədə ,
Səhv doğuldum, ilk pərdədə.
Qadınlığın ağır adı,
Yıxdı məni hər pillədə.
Çağlayardım çaylar kimi,
Ucalardım dağlar kimi.
Bəzəyərdim iqbalımı,
Çiçəkləyən bağlar kimi.
Əgər qadın olmasaydım

### *Yorğun baxtım*

Karvan donqarının beli qədər
donqar baxtım.
Belindəki yükü qədər
Yüklü baxdım.
Gövşədiyi tikan kimi
Tikan baxtım.
Quma batmış
ayagıtək yalın baxtım.
Gönü kimi incəlməyən
Qalın baxtım.
Uzun karvan yollarından
Yorğun baxdım

### *Bayramdan-bayrama*

Ay bölünüb oldu yarı,
Yada düşdün gecə yarı,
Bir halımı yoxla barı,
Gəlib bayramdan-bayrama.

Hey gözlədim qonağımı,
Həsrətdən al sorağımı,
Sənsiz solan yanağımı,
Boya, bayramdan-bayrama.

Dönsəm, uşaqlıq ilinə,
Bir yaylıq atsam evinə,
Ürəyimi qoy içinə,
Qaytar, bayramdan-bayrama.

### *Yollar*

Soyuq qış gecəsi alıb apardın,
Apardın sən onu de, hara yollar.
Görünmür izləri yağışlar yumuş,
Qaytarın siz onu, qaytarın yollar.

Bu necə səbirdi, dözümdü səndə,
Bu necə yuxudur, yozumdu səndə,
Həsrətin özüntək uzundu səndə,
Qaytarln siz onu, qaytarın yollar.

Dərdimə ah çəkdi dumanlı dağlar,
Yoldu çiçəyini bağcalar- bağlar,
Dəfnə də,yarpağın saraldıb ağlar
Qaytarln siz onu, qaytarın yollar.

Küsüb şeirlərim nazlanıb indi,
Onsuz al günəşim buzlanıb indi,
Palcıqlı yollar da tozlanıb indi,
Qaytarın siz onu, qaytarın yollar.

Mürəkkəb tükəndi, qələm yoruldu,
Gözüm gah yumulub, gah da ovuldu,
Ay da parcalanıb hilal doğuldu,
Qaytarın siz onu, qaytarın yollar

### *Sərin yaz gecəsi...*

Mürgüləyən qaranlığın
Hər kəsin eşidə bilmədiyi
Sevgi pıçıltısı.
Arabir görünən ulduz parıltısı
Qonşu pəncərədən yayılan
Caykovskinin məşhur melodiyası
Bax budur,
Sair dunyası...